# Hərbi qulluqçular şəhid ailələri ilə görüşüblər








**Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən Azərbaycan Ordusunun hərbi qulluqçuları şəhid ailələri ilə görüşüblər.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, müxtəlif bölgələrdə keçirilən görüşlərdə hərbi qulluqçular şəhidlərin ailə üzvləri ilə söhbətlər aparıb, onların qayğıları ilə maraqlanıblar.

Şəhidlərimizin məzarları ziyarət edilərək xatirələri dərin hörmət və ehtiramla yad olunub.

Azərbaycan Respublikası Prezidentinin 7 noyabr tarixli müvafiq Sərəncamına əsasən təltif edilən şəhid hərbi qulluqçuların medalları onların ailə üzvlərinə təq dim edilib.

Şəhidlərin ailə üzvləri və yaxınları on lara göstərilən diqqət və qayğıya, eləcə d şəhidlərimizin xatirəsinin daim uca tutul duğuna görə Azərbaycan Respublikasını Prezidenti İlham Əliyevə və Müdafiə Na zirliyinin rəhbərliyinə minnətdarlıqların bildiriblər.

Azərbaycan. - 2023.- 28 dekabr (№ 285).- S.11.